# Milli Məclis Sədrinin müavini Adil Əliyev Vətən müharibəsi şəhidi Zaur Nudirəliyevin anım tədbirində iştirak edib

Noyabrın 2-də Bakının Nərimanov rayonunda Vətən Müharibəsi Qəhrəmanı, Azərbaycan Hərbi Hava Qüvvələrinin polkovniki, şəhid Nudirəliyev Zaur İsmayıl oğlunun anım tədbiri keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclis Sədrinin müavini Adil Əliyev, deputatlar Hikmət Məmmədov, Rasim Musabəyov, Nərimanov RİH başçısı Abdin Fərzəliyev, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim çərçivəsində Vətən Müharibəsi Qəhrəmanı, şəhid Nudirəliyev Zaur İsmayıl oğlunun İkinci Fəxri xiyabanda məzarı ziyarət edilib, şəhidlərimizin ruhuna dualar oxunaraq, xatirələri ehtiramla yad olunub.

Tədbirdə çıxış edənlər Zaur Nudirəliyevin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışıblar. Bildirilib ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun Ermənistanın 30 il müddətində işğal altında saxladığı tarixi torpaqlarımızı düşmən işğalından azad etməsi bir daha ölkəmizin gücünü, qüdrətini dünyaya göstərdi. Məhz şəhid Zaur Nudirəliyev kimi oğullarımızın hesabına Azərbaycan döyüş meydanında misli görünməmiş zəfər qazandı.

Şəhidlərimiz bu tarixi qələbəni bizə bəxş edərək, şanlı tariximizin ən parlaq səhifələrini öz qanları ilə yazdılar. Bu zəfər yürüşümüzdə qəhrəmancasına şəhid olmuş Zaur Nudirəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şanlı tariximizin ən parlaq səhifəsi olan Vətən müharibəsində qazanılmış qələbəyə görə Azərbaycan xalqı hər zaman qəhrəmanlarımıza minnətdardır.

Azərbaycan.- 2021.- 3 noyabr.- S.3.